“Mömin kişi mömin qadına nifrət etməsin, əgər onun bir xüsusiyyətini bəyənməsə, digərini bəyənər.”

Əbu Hureyradan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: “Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Mömin kişi mömin qadına nifrət etməsin, əgər onun bir xüsusiyyətini bəyənməsə, digərini bəyənər.” Və ya: “ başqa xüsusiyyətini” demişdir.
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ərin öz xanımına, ona haqsızlıq etməyə, onu tərk etməyə və ondan üz döndərməyə səbəb olan şəkildə nifrət etməsini qadağan etmişdir. İnsan naqis yaradılmışdır. Əgər kişi xanımının bir pis xasiyyətinə nifrət edərsə belə, onda digər yaxşı xüsusiyyət tapar və özünə uyğun olan yaxşı xüsusiyyətdən razı qalar, razı olmadığı pis xüsusiyyətlərə isə səbr edər. Bu, onu səbrli olmağa və xanımından ayrılmaq istəyəcək qədər ona nifrət etməməsinə səbəb olar.

http://sunnah.global/hadeeth/az/show/3071